AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 07.09.2016 |
| Qeydiyyat nömrəsi | 1617050000011400 |
| Adı | Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 23.09.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.030.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201609071400 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 22.09.2016 |

“2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri”nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamı ilə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə”nin 17-ci hissəsini rəhbər tutaraq Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyası

QƏRARA ALIR:

1. “Bəyannamələrin kameral vergi yoxlamalarının aparılmasına dair Qaydalar” təsdiq edilsin (1 nömrəli əlavə).

2. “Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları” təsdiq edilsin (2 nömrəli əlavə).

3. “Nümunəvi vergi ödəyicisinin müəyyən edilməsi və imtiyazların verilməsi Qaydaları” təsdiq edilsin (3 nömrəli əlavə).

4. “Elektron auditin keçirilməsi Qaydaları” təsdiq edilsin (4 nömrəli əlavə).

5. “Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən əlaqə yaradılaraq vergi ödəyicilərinin məlumatlandırılması (Outbound Call Centre) Qaydaları” təsdiq edilsin (5 nömrəli əlavə).

6. “Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin qiymətləndirilməsi Metodologiyası” təsdiq edilsin (6 nömrəli əlavə).

7. “Borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi və borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması sahəsində vergi ödəyicilərinin maarifləndirilməsi Qaydaları” təsdiq edilsin (7 nömrəli əlavə).

8. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 24.12.2012-ci il tarixli 1217050000004800 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

8.1. 16 nömrəli “Fiziki şəxsin fəaliyyətinin onlayn dayandırılması” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.2. 17 nömrəli “Hüquqi şəxsin fəaliyyətinin onlayn dayandırılması” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.3. 20 nömrəli “Fiziki şəxsin fəaliyyətinin onlayn bərpası” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.4. 21 nömrəli “Hüquqi şəxsin fəaliyyətinin onlayn bərpası” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur).

9. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq baş idarəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

10. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət baş idarəsinə tapşırılsın ki, bu Qərarla təsdiq edilmiş normativ hüquqi aktların Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

11. Bu Kollegiya Qərarının 4-cü hissəsi ilə təsdiq edilmiş “Elektron auditin keçirilməsi Qaydaları” 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

Vergilər naziri,
1-ci dərəcəli dövlət vergi xidməti müşaviri — Fazil Məmmədov

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 7 sentyabr 2016-cı il tarixli 1617050000011400 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 6

Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin qiymətləndirilməsi

# M E T O D O L O G İ Y A S I

## 1. Ümumi müddəalar

1.1. “Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin qiymətləndirilməsi Metodologiyası” (bundan sonra - Metodologiya) “2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri”nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamının 2.8-ci bəndinin icrası məqsədi ilə hazırlanmışdır.

1.2. Bu Metodologiya uçot məlumat bazasında olan məlumatlar əsasında vergidən yayınma halları üzrə risklərin qiymətləndirilərək müvafiq vergi nəzarəti tədbirlərinin seçilməsi və vergi potensialının (vergi boşluğunun) müəyyən edilməsi məqsədilə müvafiq meyarlar nəzərə alınmaqla təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə vergidən yayınma risklərinin qiymətləndirilməsini, vergidən yayınma hallarına yol vermiş vergi ödəyicilərinin vergi potensialının müəyyən edilməsini və yayındırılmış vergilərin dövlət büdcəsinə ödənilməsi məqsədi ilə həyata keçirilməli olan vergi nəzarəti tədbirinin seçilməsi mexanizmlərini müəyyən edir.

1.3. Bu Metodologiyada istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. Vergi ödəyicisinin təsərrüfat obyekti vergi uçotunda olan vergi ödəyicisi tərəfindən malların istehsal və ya təqdim edildiyi, işlərin görüldüyü və (və ya) xidmətlərin göstərildiyi yer;

1.3.2. Vergi riski – vergi öhdəliklərinin hər hansı səbəbdən düzgün müəyyən edilməməsi nəticəsində vergi ödəyicisinin maliyyə itkisinə məruz qalmasının mümkünlüyü;

1.3.3. Biznes qrupu – analoji fəaliyyətlə məşğul olan vergi ödəyicilərinin təsərrüfat obyektlərinin müqayisəsi üçün onların iqtisadi göstəricilər üzrə təsnifatlaşdırılaraq biznes qruplara (kiçik, orta və iri qruplara) bölünməsi;

1.3.4. Vergi riskinin qiymətləndirilməsi – vergi öhdəliklərinin düzgün müəyyən edilməsinin qiymətləndirilməsi;

1.3.5. Vergi potensialı ($V^P$) – vergi ödəyicisi tərəfindən ödənilməli olan vergi məbləği;

1.3.6. Vergi boşluğu ($V^B$) - vergi ödəyicisi tərəfindən ödənilməli olan və ödənilən vergi məbləğləri arasında fərq.

## 2. Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin təhlili və qiymətləndirilməsi parametrləri

2.1.Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin təhlili və qiymətləndirilməsi hər sahənin xüsusiyyətinə uyğun parametrlər müəyyən edilərək Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (bundan sonra - AVİS) olan məlumatlardan istifadə etməklə həyata keçirilir.

2.2. Sahələr üzrə spesifik risklərin müəyyən edilməsi və bu risklərin qiymətləndirilməsi üçün istifadə olunan məlumatların dəqiqliyi araşdırılmalıdır.

2.3. Hər sahə üçün seçilən spesifik parametrlər aşağıdakı şərtlərə uyğun gəlməlidir:

2.3.1. Vergi ödəyicisinin iqtisadi göstəriciləri fəaliyyət sahəsi üzrə müəyyən edilmiş göstəriciləri ilə uzlaşmalıdır;

2.3.2. Parametrlərin göstəricilərinin təhrif edilməsi ehtimalı olmamalıdır;

2.3.3. Bəyan edilən parametrlər obyektiv hesablana bilən (yerində ölçülə bilən) və (və ya) üçüncü şəxsin məlumatlarına əsaslanmalıdır.

2.4. Risklərin qiymətləndirilməsi və vergi potensialının (məbləğlərin) hesablanması ilə bağlı təhlillərin aparılması üçün parametrlər, analoji (eyni fəaliyyət növü və biznes qrupa aid olan vergi ödəyicilərinin və onlara məxsus olan obyektlərin göstəricilərini əks etdirən aşağıdakı məlumatlar əsasında müəyyən edilir:

2.4.1. Bəyan edilmiş son (dəqiqləşdirilmiş) dövriyyə, son xronometraj və ya səyyar vergi yoxlamasının nəticələri üzrə dövriyyə və ödənilmiş vergilər;

2.4.2. Fəaliyyət sahəsi üçün spesifik parametrlər (əsas sahə, işçilərin sayı, kommunal xərclər, əmək haqqı, ödənilmiş vergilər və sair).

### 3. Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin növləri

3.1. Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklər AVİS vasitəsilə elektron qaydada müəyyən edilir və qiymətləndirilir.

3.2. Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklər iki növə bölünür:

3.2.1. Universal risklər ($\boldsymbol{R}^{U}$)

3.2.2. Sahəvi risklər ($\boldsymbol{R}^{S}$).

### 4. Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin təhlilinin üsulları və qiymətləndirilməsi

4.1. Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin təhlili üçün iki analitik üsul tətbiq olunur:

4.1.1. Vertikal təhlil – bir və ya bir neçə iqtisadi göstəriciləri üzrə vergi ödəyicilərinin və ya onlara məxsus obyektlərin eyni sahədə çalışan və eyni biznes ölçüsü olan digər vergi ödəyicilərinin və ya onlara məxsus analoji obyektləri ilə müqayisə olunur və risk müəyyən edilərək qiymətləndirilir.

4.1.2. Mütənasib təhlil – hər hansı vergi ödəyicisi üçün digər analoji vergi ödəyiciləri olmadığı halda hesabat dövrü üzrə bu vergi ödəyicisinin göstəricilərinin qiymətləri əvvəlki illərin göstəricilərinin orta qiymətləri ilə müqayisə olunur və risk müəyyən edilərək qiymətləndirilir.

4.2. Biznes ölçüsü üzrə təsnifat qrupundan asılı olaraq vergi ödəyicilərinin universal və sahəvi risklərinin qiymətləndirilməsi üçün müvafiq olaraq vertikal və mütənasib təhlil üsullarından istifadə olunur.

4.3. Təhlillərin nəticələrinə əsasən müəyyən olunan risklər faizlə ifadə olunur və faizlərin nisbətlərinə müvafiq olaraq 7 ballıq şkala əsasında hər risk intervalı üzrə qiymət (bal) müəyyən olunur.

| $R_{obj}$ | $R_{obj}$ | Riskin qiyməti (bal) $Qr^{k}_{obj}$ | RİSK ALT-QRUPU | RİSK ALT-QRUPUNUN ADI |
|---|---|---|---|---|
| -5% ≤ | 0% | 0 | NR | Risk yoxdur |
| 1% | 10% | 1 | VL | Risk çox azdır |
| 11% | 20% | 2 | L | Risk azdır |
| 21% | 30% | 3 | LM | Risk az orta arasındadır |
| 31% | 50% | 4 | M | Orta risk |
| 51% | 70% | 5 | MH | Risk orta yüksək arasındadır |
| 71% | 90% | 6 | H | Yüksək risk |
| 91% | ≥100% | 7 | VH | Çox yüksək risk |

5. Universal risklərin ($R^U$) təhlili və qiymətləndirilməsi

5.1. Universal risklər eyni fəaliyyət sahəsi və biznes ölçüləri nəzərə alınmaqla müəyyən edilən iqtisadi göstəricilər əsasında vergi ödəyicilərinin vergidən yayınma halları üzrə aşağıdakı risklərin qiymətləndirilməsini nəzərdə tutur:

5.1.1. R1 - Əmək haqqı (ƏH) riski;

5.1.2. R2 – Hesablanmış vergi (HV) riski;

5.1.3. R3 – Ödənilmiş vergi (ÖV) riski;

5.1.4. R4 – Rentabellik (PR) riski;

5.1.5. R5 – ƏDV bəyannaməsi üzrə əvəzləşdirilmiş vergi (ƏV) riski;

5.1.6. R6 – Dövriyyənin azaldılması riski;

5.1.7. R7 – Xərclərin artırılması riski.

5.2. Universal risklərin qiymətləndirilməsi ilə bağlı vergi ödəyiciləri mükəlləfiyyətinə, yerləşdiyi əraziyə və fəaliyyət növlərinə uyğun olaraq müvafiq qruplar üzrə təsnifatlaşdırılaraq bu Metodologiyanın 4-cü hissəsinə müvafiq olaraq vertikal və mütənasib üsullardan istifadə olunmaqla təhlillər aparılır.

5.3. Vertikal təhlil üzrə $R^V1$ – $R^V7$ və mütənasib təhlil üzrə $R^M1$ – $R^M7$ riskləri vergi ödəyicilərinin qrupu (ƏDV və ya sadələşdirilmiş) üzrə əhəmiyyətlilik dərəcəsinə uyğun olaraq xüsusi çəkilər nəzərə alınmaqla aşağıdakı qaydada müvafiq düsturlarla hesablanır:

| № | Riskin adı | Riskin xüsusi çəkisi | Hesablama düsturu |
|---|---|---|---|

| | | ƏDV | Sadələşdirilmiş vergi | |
|---|---|---|---|---|
| R1 | Əmək haqqı (ƏH) riski | 0,1 | 0.15 | R1= $((ƏH/D)^{ST} – (ƏH/D)^{B}) : (ƏH/D)^{ST}$ |
| R2 | Hesablanmış vergi (HV) riski | 0,15 | 0.3 | R2= $((HV/D)^{ST} – (HV/D)^{B}) : (HV/D)^{ST}$ |
| R3 | Ödənilmiş vergi (ÖV) riski | 0,15 | 0.3 | R3= $((ÖV/D)^{ST} – (ÖV/D)^{B}) : (ÖV/D)^{ST}$ |
| R4 | Rentabellik (PR) riski | 0,2 | | R4= $((PR/D)^{ST} – (PR/D)^{B}) : (PR/D)^{ST}$ |
| R5 | ƏDV bəyannaməsi üzrə əvəzləşdirilmiş vergi (ƏV) riski | 0,1 | | R5= $((ƏV/D)^{ST} – (ƏV/D)^{B}) : (ƏV/D)^{ST}$ |
| R6 | Dövriyyənin azaldılması riski | 0,15 | 0.25 | R6 = $1 – D^{B}/D^{ST}$ |
| R7 | Xərclərin artırılması riski | 0,15 | | R7 = $\{(\Delta D/\Delta X)^{ST} - (\Delta D/\Delta X)^{B}\}:(\Delta D/\Delta X)^{ST}$ |

B - bəyan edilmiş göstərici indeksi;
ST- müqayisə üçün götürülmüş standart göstərici (nisbət) indeksi;
D - dövriyyə
ΔD - dövriyyənin artım templəri;
ΔX - xərclərin artım templəri.

5.4. Vertikal və mütənasib təhlil üsulları əsasında vergi ödəyicisi və ya obyekt üzrə ümumi riskin müəyyən olunması məqsədilə bu Metodologiyanın 5.1-ci bəndində göstərilən 7 risk ayrı-ayrılıqda qiymətləndirilməklə j-obyektinin və ya obyekti olmayan j-vergi ödəyicisinin (j- VÖ) aqreqat risk qiyməti aşağıdakı düstur əsasında hesablanır:

$$(Q^{rA}_{obj}) = (1/w) \sum_{K=1}^{N} a^{jk} * Qr^{k}_{obj}$$

$Qr^{k}_{obj}$ – obyektin k-tipli risk üzrə qiyməti;
N - k-tipli risklərin sayı.
Bununla, $Q^{rA}_{obj}$ – aqreqat riskin qiyməti normallaşdırılmış risklərin cəmini əks etdirir.
$a^{j}$ – k-tipli riskin xüsusi çəkisi vergi riski baxımından göstəricinin əhəmiyyətindən asılıdır (0,1÷0,3 interval arasında dəyişə bilər).

$$W = \sum_{K=1}^{N} a^{k}$$

5.5. Təhlil nəticəsində $R^{V}1 – R^{V}7$ və $R^{M}1 – R^{M}7$ risklər faizlə (%-lə) ifadə olunaraq bu Metodologiyanın 4.3-cü bəndinə müvafiq olaraq qiymətləndirilir.

## 6. Sahəvi risklərin ($R^{S}$) təhlili və qiymətləndirilməsi

6.1. Sahəvi risklər təsərrüfat obyektləri üzrə eyni fəaliyyət sahəsi və biznes ölçüləri nəzərə alınmaqla müəyyən edilən iqtisadi göstəricilər əsasında vergi ödəyicilərinin vergidən yayınma halları üzrə risklərin qiymətləndirilməsi və vergi potensialının (vergi boşluğunun) hesablanmasının müəyyən edilməsi üçün nəzərdə tutulur.

6.2 Sahəvi risklərin qiymətləndirilməsi ilə bağlı vergi ödəyiciləri mükəlləfiyyətinə, yerləşdiyi əraziyə və fəaliyyət sahələrinə uyğun olaraq müvafiq qruplar üzrə təsnifatlaşdırılaraq bu Metodologiyanın 4-cü hissəsinə müvafiq olaraq vertikal və mütənasib üsullardan istifadə olunmaqla təhlillər aparılır.

6.3. Sahəvi risklər hər bir təsərrüfat obyekti üzrə analoji obyektlərlə aşağıdakı 3 risk meyarı nəzərə alınmaqla müqayisə edilərək müəyyən edilir və müvafiq düsturlarla hesablanılır:

6.3.1. R1 - eyni risk qrupunda olan vergi ödəyicilərinin son bəyannamə göstəricilərinin müqayisəsi:

$$R1 = \{ (G^{b}_max\ 5_orta)_{Risk\ qrupu} - G^{b}_{obj} \} / (G^{b}_max\ 5_orta)_{Risk\ qrupu}$$

$G^{b}_{obj}$ – j-obyektin son bəyannamə üzrə G göstəricisininin (nisbətininin) orta aylıq ədədidir (G= orta aylıq dövriyyə/parametrin göstəricisi);

$(G^{b}_max\ 5_orta\ )_{Risk\ qrupu}$ – j-obyektin daxil olduğu risk qrupu üzrə son bəyannamə üzrə orta aylıq G (G= orta aylıq dövriyyə/parametrin qiyməti) göstəricilərinin (nisbətlərininin) 5 maksimal göstəricilərinin orta ədədidir.

6.3.2. R2 -eyni risk qrupunda olan vergi ödəyicilərinin son xronometraj göstəricilərinin müqayisəsi:

$$R2 = \{( G_{orta\ ay}_\ son_xr/a)_{Risk\ qrupu} - G^{b}_{obj} \} / (G_{orta\ ay}_son_xr/a)_{Risk\ qrupu}$$

$G^{b}_{obj}$ – j-obyektin son bəyannamə üzrə G göstəricisininin (nisbətininin) orta aylıq ədədidir; (G= orta aylıq dövriyyə/parametrin göstəricisi);

$(G^{b}_{orta}_son_xr/a)_{Risk\ qrupu}$ – j-obyektin daxil olduğu risk qrupu üzrə son xronometraj müşahidəsi və ya səyyar vergi yoxlaması zamanı müəyyən olunan G göstəricilərinin orta aylıq ədədidir.

6.3.3. R3-eyni biznes ölçülü az riskli vergi ödəyicilərinin son xronometraj göstəricilərinə əsasən müqayisəsi:

$$R3 = \{( G^{xr/a}_{orta\ ay_\ LRob}\ )_{Biznes\ qrupu} - G^{b}_{obj} \} / (G^{xr/a}_{orta\ ay_\ LRob}\ )_{Biznes\ qrupu})$$

$G^{b}_{obj}$ – j-obyektin son bəyannamə üzrə G göstəricisininin (nisbətininin) orta aylıq ədədidir;

(G= orta aylıq dövriyyə/parametrin göstəricisi) ;

$(G^{xr/a}_{orta\ ay_\ LRob})_{Biznes\ qrupu}$ – j-obyektin ölçüsünə görə daxil olduğu biznes qrupu (bq) ( iri, orta, kiçik və ya iri və orta+kiçik) daxilində seçilmiş az riskli obyektlərin (LRob) son xronometraj müşahidəsi və ya səyyar vergi yoxlaması zamanı müəyyən olunan G göstəricilərinin orta aylıq ədədidir.

6.4. R2 riskin ölçülməsi zamanı hər biznes ölçüsü qrupu (bq) üzrə riski 0 (sıfır), 1(bir) və 2 (iki) balla qiymətləndirilən obyektlər az riskli (LRob) obyektlər sayılır. R3 riskinin hesablanmasında bu obyektlərin son xronometraj müşahidəsi və ya səyyar vergi yoxlaması zamanı müəyyən olunan orta göstəriciləri $(G^{xr/a}_{orta\ ay_\ LRob})_{bq}$ istifadə olunur.

6.5. Risklərin əhəmiyyətlilik dərəcəsinə müvafiq olaraq xüsusi çəkiləri nəzərə alınmaqla 3 risk qrupu daxilində hər obyektin aqreqat riski R (%-lə) aşağıdakı düstur əsasında hesablanır:

$$R = 0,2 *R1 + 0,3*R2 + 0,5*R3$$

6.6. Təhlil nəticəsində $R^1$ – $R^3$ risklər üzrə aqreqat risk R faizlə (%-lə) ifadə olunaraq bu Metodologiyanın 4.3-cü bəndinə müvafiq olaraq qiymətləndirilir.

6.7. Hər 3 risk qrupu daxilində hər fəaliyyət sahəsinə və biznes ölçüsünə uyğun hər obyektin vergi boşluğu VB = ($V^{pot}$ - $V^{bəy\ son}$) və vergidən yayınma faktoru $\phi$= VB/$D^{bəy\ son}$ hesablanılır, obyektin universal və sahəvi aqreqat risklərin qiymətləri $Q^{rA}$ ilə müqayisə olunaraq vergi nəzarət tədbiri seçilir.

6.8. Vergi boşluğunun hesablanmasında tətbiq olunan düsturlarda hər risk qrup üzrə xronometraj müşahidəsi və ya səyyar vergi yoxlaması zamanı müəyyən olunan G göstəricilərinin (sahədən asılı olaraq) orta ədədlərindən istifadə olunur.

6.9. Hər hansı risk qrupun daxilində xronometraj müşahidəsi və səyyar vergi yoxlaması aparılmış obyekt olmadığı halda digər qrupun (nisbətən daha yüksək risk qrupun) xronometraj müşahidəsi və səyyar vergi yoxlaması aparılmış obyektlərinin orta göstəricisi istifadə olunur.

## 7. Yekun müddəalar

7.1. Bu Metodologiya vergi ödəyicilərinin vergidən yayınma risklərinin qiymətləndirilməsi əsasında yarana biləcək vergidən yayınma hallarının vaxtında qarşısının alınması, sahə, ərazi və vergi növləri üzrə vergi potensialının dəyərləndirilməsi və büdcəyə vergi daxilolmalarının müəyyənləşdirilməsi, habelə vergi nəzarət tədbirlərinin düzgün seçilməsi, planlaşdırılması və səmərəli həyata keçirilməsi üçün istifadə edilir.

7.2. Bu metodologiya əsasında müəyyən olunan risklər üzrə kameral vergi yoxlaması Vergi Məcəlləsinin 37.2-ci maddəsində nəzərdə tutulmuş müddət ərzində həyata keçirilməlidir. Bu müddət bitdikdən sonra risklərə əsasən həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz.